# Esselər kitabı haqqında



*Rəşid FAXRALI*

Dünənlər tarixdi, bu gün də tarix olacaq. Dünənlərin də, bu günün də yaşanılmışlarının fəlsəfəsinin dərki xatırlandıqca (eşidildikcə), yazıldıqca (oxunduqca) asanlaşır, gərəkləşir. Qədəmin iz olacağına, izin cığıra, cığırın yola dönəcəyinə, sözün fikir, fikirin kəlam, kəlamın işıq, işığın köz, közün ocaq, əməlin çıraq, çırağın bayraq olacağına inamın səni bir boy da dikəldir. Bu da tarixdi – gümanın tarixi...

Ənvər Çingizoğlu tarixlə tarixi kəlmələşmələrinə gərəkli (və tarixi!) söz biçimi verir; bu esselər oxuyanın düşüncələrini tərpədir, sənə elə gəlir ki, oxuduqları (hadisələr) gözlərinin qabağındaca tarixləşir.

Ənvər Çingizoğlunun esselərini oxuduqca özünü şükranlıq namazı qılanların sırasında hiss edisən. Nəyin şükranlığıdı bu? – Tanrının xalqımıza verdiyi söz sərvətinin (folklorumuzun) şükranlığıdı, bu sərvəti tütyə, sözü üzərrik bilənlərin (yazanların), sözə sədaqətinin şükranlığıdı.

Şükranlığın işığı yaxşı əsərlərin, gərəkli əsərlərin süd anasıdı; bu işığın sehri-ovsunu yoxdu, sehri-ovsunu göylərdən endirən, şirin-şirin dindirən işıqdı.

Ənvər Çingizoğlunun “Kim yaman?” kitabı sözlərin poetik düzümüylə gözəldi, nizamı-sırasıyla gözəldi. Dilimizin söz nəhrini xatırlatmasıyla gözəldi. Oxuyunca Dədə Qorqudun alğışını eşidirsən: “Surun yeriisin, Çingiz oğlu Ənvər. Ad qoyanına rəhmət. Ömrünü Tanrı versin!”. Nə gözəl alğışdı. Bu alğışın səslənişi də “Kim yaman?-”ın hünəridi...

“Kim yaman?”ı oxuduqca Qurbanini, Qurbaninin möcüzə “Bənövşə”sini xatırlayıram. Dörd əsr əvvəl də yaz gəlincə kolluqları bənövşələr bürüyərdi, üzə duran kürlüyü, sərməndliyi, fəndgirliyi gözdən-könüldən biryolluq kürüyərdi. O əyyamlarda da kolluqlarda bənövşə görənlər, görüncə diz çöküb qoxusunu ciyərinə çəkənlər, bu qoxulamanı ruhuna salavat bilənlər, kol-kos qana bələsə də əl uzadıb dərənlər bilirdi ki, nə möcüzədi bənövşə. Ancaq bənövşənin duruşunu kimsə Qurbani kimi duya bilməmişdi; Qurbaninin duyumu bu bənzərsiz duruşu bənzərsiz söz möcüzəsinə döndərdi. Çingiz kişinin oğlu Ənvər zamanında eşitdiklərinə, müşahidə etdiklərinə, yetik olduqlarına Qurbaninin ulu (bəlkə də ilahi!) müşahidələriylə baxır. Ruhum xəyalən Ənvərdən soruşur: Belədirmi, Çingiz oğlu Ənvər, belədirmi? “Belədir” deməyə təvazökarlığı, “Belə deyil” deməyə insafı imkan verməyəcək.

“Kim yaman” məntiqi sualı “Kim güclüdür?” biçimində də könlümcədi. Düşüncələri tərpətdiyinə görə, ilkinin (“Kim yaman”ın) məntiqi davamı olduğuna görə.

Küm güclüdü? – tarix yaradanmı, tarixmi, qılınc tutanmı, qılıncmı, sözmü, söz yiyəsimi, yağan yağışmı, torpaqmı, gecənin zil qaranlığımı, cıraqmı? “Kim yaman?”da bu suallara məntiqi cavab deyə biləcəklərimiz el deyimləriylə gözəl çözülüb: Oduna örkənlə gedən örkənsiz gedəndən güclüdü, bəyin şapalağına üz, şallağına diz verməyənlər üzünün, dizinin – özünün qədrini bilməyənlərdən güclüdü. Özününkünü ötə, özgələri gədə bilənlər yaxını atıb yadı tutanlardan güclüdü. Öz atını ifçin nalladıb sürəyə çıxanlar bəy verən atın dişinə baxmayanlardan güclüdü...

Ənvərin “Kim yaman?” sorğusu yaşantılardan süzülən, söz-mətləb, mətləb-fikir biçimli əndişədi, narahatlıqdı. Bu əndişə də, bu narahatlıq da dili söz, əli qələm tutandan üzü bu yana Çingiz oğlu Ənvərin ruhunun can ortağıdı...

“Abidin ibadəti var, səxavəti yox, comərdin səxavəti var, ibadəti yoxdursa”, “kimi ac, kimi ac-yalavac” dolaşırsa, hardan biləк kim yamandı, Çingiz oğlu? (“Tanrım”)...

Biləyinə güvənən igid (“İgidim”) kələyinə güvənən igiddən güclüdü. Həm də mərdlə daş daşıyan namərdlə çörək kəsəndən güclüdü. Bir də el qəhri çəkənlər “azacıq aşım, ağrımaz başım”fəlsəfəsiylə yaşayanlardan güclüdü. Bir də lilparla su içənlər büllur cam sonulayanlardan güclüdü. Bir də yurdunda yoncanın göyərib-göyərmədiyini soruşan (“Obadamısan, yurdum?!”) el canlı kişi sərhədlərimizdən uzaqlarda haranın yaşıllıq, gözçəkən yer olduğunu soruşanlardan çox güclüdü... “Arazbar gülü”nü oxuyunca könlümü “Arazbarı” tellәndirir, Ceyid Şuşinskinin avazını eşidirəm sanki:

Burda yaxşı var, yaman var.

Kimdi yaxşı, kimdi yaman? – nə “Arazbarı” deyir, nə də “Kim yaman?”. Bu düşüncələrlə baş-başa qalınca Dirili Qurbaninin, Dirili Surxayın şəbnəmmisal gəraylılarını eşidirəm. Bu, . Qurbani hikmətinə, Surxay hikmətinə biət eşitmədi, qayibanə eşitmədi. Mənə elə gəlir ki, zaman bircə anlığa ayaq saxlasa, Ənvərin esseləri dildil ötəcək, daş üstə də Arazbar gülləri bitəcək:

Bu kül sevdalıq külüdü,  
Bu kül açacaq kilidi...  
Arazbar könül gülüdü,  
Harayına obam gələr.

Dirili Surxayın ruhu əlini gözünün üstünə qoyub nəvəsinin səsinə sarı boylanacaq, gümanındayam. Bu güman mənim gümanım olsa da, “Kim yaman?”ın ijməsidi (yəni qurğusudu, əməlidi). Və bu düşüncələr içindəykən mənə elə gəlir ki, Dirili Qurbaninin məzarını ziyarətə Ənvər Çingiz oğluyla, Dirili Surxayın nəvəsi Sərdar Sərxan oğluyla mən də gedirəm. Zamanında Xətaimizin ruh qardaşı olmuş söz sərkərdəsinin ziyarətinə, həm də uğur duası kimi pıçıldadığım iki misrayla gedirəm:

Gəlirəm bir könül xoşluğu ala  
Sənin “Bənövşə”ndən  
mənim ”Bənövşə”m.

Ənvərin “Bənövşə”si mənim “Bənövşə”mə baxır, mənim “Bənövşə”m Ənvərin “Bənövşə”sinə. O “Bənövşə”nin də sorğusu dodağını yandırır, bu “Bənövşə”nin də sorğusu dodağını yandırır: “Kim yaman?”. Bizi Qurbaninin məzarından iraq salan gərdişmi, bu gərdişə yol açan qüdrətmi, bu gərdişin süründüyü cığırı-izi çığnayıb keçən sevgimi? Əlimizdən tutub aparan qüdrətdi güclü, bu qüdrətin dönməzliyidi güclü.

“İgidliyin biləkdə deyil, ürəkdə olduğunu” deyənlərdi güclü, “biləyə deyil, kürəyə güvənənlərdi” güclü (“İgidim”). Kimdi güclü? – “dikbaşı baş əydirənlərdi, dizibərki diz çökdürənlərdi” güclü (“Onlar”)...

Kimdi güclü? – “Oğuzun yayxanan dəniz misallı ordusunun ayaqdan başa, torpaqdan daşa dünyanı tutduğuna” inanıb da rastlaşdığından “haralısan?” soruşmayıb, kökünü soruşandı (“Haralısan?”) güclü...

“Arazbar gülü” ilə “Yurd yeri” arasında mənəvi-ruhi bağlılıq var. Hansı hansını tamamlayır, hansı hansının əvvəlidi? – ayırd eləmək mümkünsüzdü. Niyə? – ikisi də Vətən deyir, torpaq deyir, yurd, ocaq deyir. Bir bayatının sonluğunu xatırlayıram:

...Dərdlini dindərməyin,  
Dərd özü dilləndirir.

Elindən iraq düşənlərin dərdini yellər daraqlayır, sellər varaqlayır. Dərdin əriş-arğacı qəhrdi. Qəribliyin qəhri can üzür, ruh sarsıdır. Eldən uzaq düşənlər elin dünənini xatırlayır, dünənin qılınc tutanlarını, at çapanlarını, boy boylayanlarını, soy soylayanlarını xatırlayır. Günyəsi igidlik olan eli zamanında döyüşə Tanrı uğurlayardı, qazavata gedənlərə göylər də, yerlər də “Qəzan mübarək!” deyərdi. “Yurd yeri” “at minib axına varanların, qalalar yıxanların” yurdudu: “Haçan savaş olsa, meydan dolu baş olardı”. Niyə qada bəd gətirdi? Ənvər evindən, elindən didərgin düşənlərin ruh qardaşı kimi elinə xitabən deyir ki, “Səni yağı nə yaman darımış, nə yaman dağıtmış, gözəl yurdum! Səni yağı nə yaman talamış, nə yaman dalamış, gözəl yurdum! Ağban evlər yanmış, örəni qalmış. Yamyaşıl bağlar qurumuş, viranı qalmış...”. Müraciətdə məntiqi qınaq da var, suşlama da. Kimsə qınanmır, kimsə suçlanmır. Hamı qınanır, hamı suçlanır. “Qol salıb yağı basan qılınclar” nədən korşalıbmış? Kimdi güclü? – qılıncına bülöv çəkənlərdi, məqamı çatanda yağı sinəsinə çökənlərdi, yağının can evini sökənlərdi, yağını urvatsızlaşdırdığı ömrünü “quru yuyub yaş sərənlərdi”. Elin “ot basmış yoluna, qurumuş arxına” ağrıyan bədii “mən” bir sevginin, sevgi boyda bir ümidin işığında gedib yurd yerinə. Uçuntu-dağıntını da onda görüb, qayıdışı (özünün də elin-obanın da qayıdışını) o yaralara məlhəm bilib – “Yurd yeri” torpaqlara söz məlhəmidi (Kimdi güclü? – “Yurd yeri”di güclü, “İgidim”di güclü, “Baba”dı, “Zümzümə”di güclü, ...).

Əski uyğur mənbələrində “türk” sözünün bir yozumunun güclü, qüvvətli olduğu deyilir. Kimdi güclü? – türkdü güclü...

Yolçu yol gedəndi. Hər yol gedən yolçu deyil ha. Yolçu mənzillər kəsəcək, dağlar aşacaq, dərələr keçəcək, dizləri dağlardan daş da qoparda bilər. Yollar yora-yora mənzilini mənzillərə tələsdirən, qarşı yatan qara dağların sinəsində yel əsdirən, kələ-kötür yollara törpü olan, yorğun yola, yarğan yola körpü olan inadına yol yoldaşım deyənlərdi güclü. Ənvər Çingizoğlunun “Yolçu”su hamımızın ruh qardaşımızdı – kökünün ardınca getdiyinə görə. Yollar niyyəti bəllilər yora bilməz.

Ənvər Çingizoğlunun “Yolçu”su “Günəşin qovurmasından, küləyin sovurmasından, toz olub yelə, su olub selə qarışmaqdan çəkinməyən yolçuya” uğur duasıdı. Kim güclüdü? – hardan hara gedəcəyini bilənlərdi güclü, yolun toz-tomurunu diziylə silənlərdi güclü, yolun inadına, tərsinə gülənlərdi güclü, yolu “yorğa at əvəzi çapırdanlardı” güclü, kökünü tapmağa gedənlərdi, tapanlardı güclü. O yolçunu tanıyanlardı güclü. Tanıdınmı onu, oxucu qardaşım? Ənvərin tanıdığı yolçunu tanıdınmı?..

Kimdi güclü? – “Allah istəyən quzuya qurd dəymədiyinə əminlərdi” (“Tənhalıq”) güclü, Qumru nənənin ələyini, sacını dınqılılaşdıranları – balacalaşdıranları (“Ayaqüstü görüş”) tanıyanlardı güclü, onları zəbun edənlərdi güclü...

“Kim yaman?”ı həmdərd bilənə, dərd üstün gələndə “Kim yaman?”la dərdləşənə güclü desəm, suç olmaz. “Su dibində qovağınız tək bitməsin! Təknədə çörəyiniz də tək olmasın!” (“Tənhalıq”) dualarına bağır basanlar da güclüdü...

“Kim yaman?”ı oxuyub xətm edəndən sonra əmin oldum ki, Ənvər Çingiz oğlu güclü adamdı...

